BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2006

# «GİZLİNLƏR» ROMANI HAQQINDA

**S.Ş.ŞƏRİFOVA**
*AMEA Nizami adına Ədəbiyyat İnstitutu*

Vidadi Yusif oğlu Babanlı yaradıcılığının məhsulu olan «Gizlinlər» romanı memuar janrının nümunəsi кimi sovet dövrünün ədəbi dairələrində baş verən olaylara tarixi qiymətin verilməsi ilə maraq кəsb edir. Müəllifin özü əsərini «Gerçəк roman» adlandıraraq, təsvir edilmiş olayların real olmasını vurğulayır. Əsərdə Cəfər Xəndan, Əli Sultanlı, Səməd Vurğun, Mirzə İbrahimov, Miкayıl Rəfili, Rəsul Rza, Süleyman Rüstəm, Osman Sarıvəlli, Sabit Rəhman, Məmməd Rahim, Əli Vəliyev, Mehdi Hüseyn, Əbülhəsən, Mir Cəlal, Ənvər Məmmədxanlı, Məmməd Arif Dadaşzadə, İlyas Əfəndiyev, Nəbi Xəzri, Salam Qədirzadə, İsa Hüseynov, Mir Cabbar Mir Yəhyayev, Adil İsgəndərov, Əli Kərim, Cabir Novruz, Hüseyn Arif, Seyfulla Şamilov, Böyüкağa Qasımzadə, Seyfəddin Dağlı, İsmayıl Şıxlı, Qabil, İslam Səfərli, Bayram Bayramov, кimyaçı aкademiк Əli Quliyev, Əкrəm Əylisli, Nəriman Həsənzadə, Cəlal Məmmədov, Məmməd Cəfər Cəfərov кimi dahi Azərbaycan ədibləri ilə yanaşı, Niкolay Tixonov, Aleкsandr Tvardovsкi, Pavel Antaкolsкi, Konstantin Simonov кimi rus ədiblərinin adlarının çəкilərəк xatırlanması əsərdə diqqəti cəlb edir. Bu tarixi şəxsiyyətlərin xatırlanması və bədii ədəbiyyatda əкs etdirilməsi, onların bir qisminin romanın obrazları кimi canlandırılması gələcəк nəsillərə çatdırılacaq əvəzsiz xəzinə кimi dəyərləndirilməlidir. Əsərdə hadisələrin əsasən iкi obraz arasında inкişaf etməsi diqqətdən yayınmır. Romanda diqqəti cəlb edən əsas amillərdən başlıcasına diqqət yetirməyin vacibliyini nəzərə alaraq qeyd etməк lazımdır кi, əsər Vidadi Babanlının həyat tarixçəsini təsvir etməкlə paralel şəкildə dahi şair Səməd Vurğunun həyat və yaradıcılığını canlandırır.

«Gizlinlər» romanında İosif Stalinin, «Ellər atası»nın fəaliyyətinə, onun qurduğu cəmiyyətə və ölüm prosesinə toxunulması maraq кəsb edir. Uzun illərdən bəri haкim qüvvələrin itəatкar əlaltısına çevrilmiş sovet xalqının bütləşdirdiyi, ideallaşdırdığı Stalin xülyasının puç olduğunun əsərdə açıqlanması diqqətdən yayınmır. Sovet imperiyasının apardığı siyasət nəticəsində milli dəyərlərdən və adət-ənənələrdən кənarlaşdırılması ideologiyasının əsərdə geniş əкsini tapdığını müşahidə ediriк. O dövrdə bu ideologiyanın tərəfdarları olan qələm sahiblərinin buna münasibətləri Vidadi Babanlı tərəfindən çılpaqlığı ilə açıqlanır.

Sovet imperiyası dövründə haqsızlıqlarla üzləşmiş Vidadi Babanlının orqan işçiləri tərəfindən təhqirlərə məruz qalması və milis müstəntiqi tərəfindən üzünə şillə vurulması ilə müəllif sosialist sistemində özbaşınalığın səciyyəvi olmasını oxuculara çatdırır: «Cinayətкarın di-

lindəki qıfılı açmaq üçün günahını boynuna qoymaqdan ötrü bu da lazımdı! Zor-cinayətkarı düz yola gətirmək silahıdı». Vidadi Babanlı daxildən sovet sisteminin ədalətsizliyi və qəddarlığı ilə ram ola bilmir və öz etirazını bildirir: «Nahaqdan başqasına əl qaldırmaq, zor göstərmək haqsızlıqdı. Bizim qanunlara ziddi...».

Kommunist rejiminin özbaşınalığı milli siyasətin həyata keçirilməsində özünü daha kəskin büruzə vermişdir. Sosial bərabərlik şüarları altında azərbaycanlılara qarşı sovet imperializminin etnik təmizləmələrin və sürgünlərin aparılması «Gizlinlər» romanında xüsusi vurğulanır. Vidadi Babanlının özünün qələmə aldığı kimi «millətçilik, adət-ənənəyə sadiqlik üstündə nə qədər ünlü ziyalılarımız, xalq təəssübü çəkən görkəmli adamlarımız gözümçıxdıya salınmışdı, ciddi məhdudiyyətlərlə üzləşdirilmişdi. Bu da bəs eləməmişdi, onların ən yaxşıları zindanlarda, sürgünlərdə, təcridxanalarda çürüdülmüşdü. Bir çoxu isə məhkəməsiz, dindirilməsiz güllələnmişdi» fikirləri o dövrdə millətimizə qarşı aparılan etnik təmizləmə siyasətinin tərkibi kimi diqqəti cəlb edir. Sovet imperiyası dövründə Azərbaycanın ilan mələyən çöllərini abadlaşdırmaq əvəzinə azərbaycanlıların «qardaşlıq», «birlik» və digər bu kimi devizləri altında başqa respublikanın torpaqlarında lazımsız şəraitdə canlarını qoymaları və əzab-əziyyət çəkmələri o dövrün real hadisəsi kimi canlandırılır. Romanda sovet epoxasında xam torpaqları əkib-becərməyə yollanmış azərbaycanlıların xatırlanılması məqamı da maraqlı epizodlardandır. İsti yurd-yuvalarını qoyub gəlmiş, çətin şumlanan xam torpaqları əkib-becərən azərbaycanlılar «adi vaqonetkalarda, çadırlarda yaşayırdılar. Məişət şəraitləri həddən ziyadə pis idi». Moskvanın assimilyasiya siyasətini təkçə məcburi köçürmələr ilə yox, həm də millətlərarası nikahların bağlanmasının stimullaşdırılması vasitəsilə də aparılması müəllif tərəfindən xüsusi vurğulanır. Cuhud arvadı Rozali Abramovnanın dedikləri «Böyük vəzifə adamlarının çoxunun arvadı ya rusdu, ya bizim cuhudlardandır, ya da ermənidi. İşləri də hər tərəfdən yağ kimi gedir» deməsi ziyalı gənclərimizin irəli getmək adı ilə yabançı millətlərin qızları ilə evlənmələrinə təzyiq edilməsi faktı gözümüzdə canlandırılır.

Vidadi Babanlı sovet hakimiyyətinin müxtəlif millətlərə ayrı-seçkiliklə yanaşması problemindən də yan keçmir. Azərbaycanlılara qarşı törədilən haqsızlıqlara baxmayaraq, sovet dövründə erməni millətçiləri qarşısında heç bir əngəl törədilməməsi «Gizlinlər»də Səməd Vurğunun dili ilə açıqlanır. Belə ki, Səməd Vurğun Mir Cəfər Bağırovu qiymətləndirməsi, onun mənəvi xüsusiyyətlərinə və siyasi fəaliyyətinə qiymət verməsi zamanı Azərbaycan qarşısında əvəzsiz xidmətləri olan bu dövlət xadiminin ermənilər tərəfindən əhatələndirilməsinə xüsusi diqqət yetirir: «Mir Cəfər mürəkkəb adamıydı. Ziddiyyətli xarakteri vardı. Buna bəlkə də mühit, düşdüyü siyasi şərait səbəbiydi. Ermənilərlə əhatələnmişdi. Mühüm vəzifələri onlar tutmuşdular. O nankorların güclü təsiri altındaydı».

Milliyyətcə erməni, lakin azərbaycanlı ilə ailə qurmuş Herseli Arakelovanın obrazında erməni millətçiliyinin mahiyyəti açıqlanır. Baxmayaraq ki, həyat yoldaşı azərbaycanlıdır, Herseli Arakelova azərbaycanlılara nifrət hissi keçirir və milli zəmində ayrı-seçkilik aparır. Vidadi Babanlının qatı millətçi fikirlərinə etiraz edən Rozali Abramovna onu danlayır: «Millət ayrı-seçkiliyi edəcəyini ağlıma gətirməzdim. Sən, axı,

müasir gəncsən. Moskva kimi mədəni bir şəhərdə, bütün millətlərin qarışdığı, qovuşduğu bir yerdə təhsil alırsan. Elitar mərkəzdə intellektli şəxslərlə oturub-durursan. Milli məhdudiyyət bilməyən cəmiyyət içindəsən. Utanmırsan belə xırda şeylər barəsində düşünürsən? Ayıb olsun! Bunu mənim yanımda dilə gətiribsən, başqa yerdə bildirmə. Sənə irad tutarlar. İrəli getməyə, arzularına çatmağa qoymazlar...Kimdi erməni-müsəlmana fərq qoyan? Hamı qarışıb bir-birinə. Elə öz yaşadığımız şəhəri-Bakını misal götürək».

Ermənilərin azərbaycanlı oğlanlarının say-seçmələrini göz altına almaları və onlara qızlarını ərə verməyə cəhdləri onların xislətlərini gözümüzdə canlandırır. Bu ermənilərin apardıqları siyasətin tərkibi kimi nəzəri cəlb edir. Cuhud arvadı Rozali Abramovnanın vasitəçiliyi ilə erməni qadını Herseli Arakelovnanın ziyalı oğlanlarımızdan biri olan Vidadi Babanlını qızlarına adaxlı seçmələri faktı maraq doğurur.

Bununla yanaşı, şura hakimiyyətinin zorakı inzibati mexanizmindən çəkinməyən «Dağlı məhəlləsi»nin sakinlərinin təsvir edilməsi ilə müəllif bu idarəetmə üsulunun qeyri-effektiv olmasını oxuculara çatdırmaq istəyir. Müharibənin ağrılı-acılı günlərində soydaşlarına qarşı qeyri-insani hərəkətlər, bəzilərinin fikirləşdiyi kimi «kişi qeyrətli»lərin etdiyi nalayiq hərəkətlər Vidadi Babanlı tərəfindən qələmə alınaraq oxucuya çatdırılır. Müəllif həqiqətləri gizlətmədən başına gətirilmiş olayları açıqlaması ilə bağlı cürəti diqqəti cəlb edir. Yataqxanada yaşadığı zaman və bu yataqxananın Bakının «Dağlı məhəlləsi»ndə yerləşməsi, burada bir millətin nümayəndəsi olduğu soydaşları tərəfindən təzyiqə məruz qalması açıqlanır: «Dağlı uşaqları fironluq eləyirdilər. Hərəsi cibində iti uclu bir «fin bıçağı» gəzdirərək, qan-qan deyirdilər...Döyür, söyür, aşımızın suyunu verir və cibimizdəki pulumuzu son qəpiyinəcən götürüb, hırıldaşa-hırıldaşa uzaqlaşırdılar. Bəzən bununla da kifayətlənməyib əynimizdən təzə pencək-şalvarımızı, paltomuzu hərbə-zorbayla soyundurur, yataqxanaya lüt yola salırdılar. Nə qanundan qorxub çəkinirdilər, nə də onun nəzarətçilərindən».

Müəllifin bu cür təzyiqlərə özünün də məruz qalması faktını açıqlaması epizodu yaddaşlara həkk olunur. Yazıçının ürək ağrısı ilə qələmə aldığı bu epizod real həyat faktlarını gözümüzdə canlandırır: «...yataqxanaya çataçatda, dar bir döngədə iki zırpı, dağlı «qədeş»in girəvəsinə keçdim. Biri qarnıma dürtmə vurub məni sancılatdı. O biri başıma yağlıca bir qapaz ilişdirib, gözlərimə qaranlıq çökdürdü. Ciblərimi, qoyun-qoltuğumu eşələdilər. Qəpik-quruş nəyim vardı, götürdülər. Son ümidimə- «çörək talonu»ma da yiyələndilər. Bu da onlara bəs eləmədi, kürəyimə hərəsi bir yumruq guppuldadıb əkildilər».

Sovetlər zamanı Azərbaycan ətrafında yaranmış mühiti təsvir edən Vidadi Babanlı əsərinin əsas problematikasına – həmin tarixi dövrdə milli ədəbi mühitin işıqlandırılmasına keçir. Təbii ki, Sovet Azərbaycanının ədəbi dairələrinin gerçəkliyi SSRİ-də mövcud sosial-siyasi şəraitin bilavasitə təsirinə məruz qalmışdır.

Romanda sosialist gercəkliyində istedadlı və milli dəyərlərə sadiq insanların öz yerlərini tutmaması və bunun gələcək nəsillərə ağır təsiri yazıçı tərəfindən qələmə alınır. İstedadın kommunistlər tərəfindən məqsədyönlü tanınmaması «Azərbaycan» jurnalının baş redaktoru vəzifəsində işləmiş Cəlal Məmmədovun Əli Kərimə etdiyi pisliklər vasitəsilə əsərdə əksini tapmışdır: «...Əli Kərim kimi istedadlı bir şairi çörək pu-

luna möhtac qoymuşdu. «Piyaniska» damğası ilə jurnaldan qovdurmuşdu. Bir il sonra Əli Kərim ehtiyac və qədirbilməzlik ucbatından xəstələnib dünyasını dəyişəndə onun qəbri başında bəlağətli vida nitqi söyləmişdi».

Yazıçının atası Yusif Babanlının «kollektivləşmə» dövrünün bədii yaradıcılıq haqqında irəli sürdüyü fikirlər buna əyani sübutdur: «...Hər yerindən duran şair olsaydı, şairləri dünya tutmazdı. Yalan-yalnıc qafiyə düzməyi, mənasız-məntiqsiz söz uydurmağı bacarmaq hələ şairlik demək döyül. Belələri hər kənddə, hər şəhərdə doludu». Yaşadığı cəmiyyətdə keçmiş irsə etinasız münasibət ağrılı problem kimi Vidadi Babanlı tərəfindən göstərilir: «Bir sözlə, klassik poeziyaya, min illik ənənəyə üstüörtülü şəkildə arxa çevrilmişdi. Köhnə şer formalarına: qəzəl, qəsidə, qoşma, gəraylı və sairəyə gizli qadağa qoyulmuşdu. Bu formalarda qələmə alınmış şerlər lap bu günün tələbləri ruhunda yazılsalar da pis nəzərlə baxılırdı. Lazımsız mühafizəkarlıq adlandırılırdı... Ümumiyyətlə, xalq ruhuna, milli psixologiyaya yaxın əsərlər pislənir, onların müəllifləri sarsıdılır, gözdən salınırdılar». Yazıçının köhnə şer formalarında deyil, yeni şer formalarında poeziya nümunələrinin qələmə alınmasını vurğuladığı məqamı Sovet imperiyasının apardığı siyasətinin və onun həyata keçirdiyi ideologiyasının tərkibi kimi dəyərləndirilməlidir. Artıq bu dövrdə tarixi hadisəyə çevrilmiş kollektivləşməni təbliğ etmənin ilk növbədə dayanması zəruriyyət kimi özünü göstərməkdədir. Bu dövrdə qələm sahiblərinin qarşısında duran əsas vəzifə kolxoz quruluşlarının nailiyyətlərini, sosializm quruculuğunun uğurlarını vəsf və əks etdirmək idi. Sovet imperiyasının apardığı bu cür ideologiyaya qarşı kim çıxa bilərdi? Qarşı çıxanların bir qisminin aqibəti isə artıq məlum idi. Əsərdə Vidadi Babanlının tarixi əhəmiyyət kəsb edən bir məlumatın, yəni Səməd Vurğuna qarşı olan təzyiqin xatırlanması, tarixi fakt kimi maraq doğurur. Səməd Vurğunun «Məni tutmaq istəyirlər... Vəziyyət gərgindi... Teatr repertuarlarından pyeslərimi yığışdırıblar. Təzə yazılarımı da bəhanələrlə çap etmirlər. «Dəniz kənarı» idarəyə iki-üç dəfə çağırıblar» deməsi repressiya dövründə Azərbaycan ziyalılarına qarşı təmizləmə siyasətinin də dahi şairdən yan ötmədiyi və bu cəhətdən haqsız təzyiqlərə məruz qalması gözümüzdə canlandırılır.

Milli ruhda yazıb-yaradan yazarlara qarşı aparılan qeyri-peşəkar mübarizə Vidadi Babanlı tərəfindən tarixi aspektdən açıqlanır. Osman Sarıvəllinin «Gətir, oğlum, gətir!» şeri ətrafında gedən mübahisələrin əsərdə əksi diqqəti cəlb edir. Şair Məmməd Rahimin şer haqqında «bu açıq-aşkar antisovet şeridi. Məfkurəmizə, ideologiyamıza zidd və ziyanlı əsərdir» kimi fikirlərinə yazıçı Süleyman Rəhimovun «poetik bir dillə, obrazlı ifadələr, məcazlarla üzünü oxucusuna tutub xitab eləyir ki, ay bizim gənclər, yerdən təzə-təzə cücərib qalxanlar, keçmişinizi unutmayın. Qınınızdan çıxıb, qınınızı bəyənməmək mərəzinə tutulmayın. Kökünü, özülünü sərf-nəzər eləmək, onlara laqeyd qalmaq, biganəlik göstərmək olmaz. Belə hallar nəticədə çox mənfi hallara gətirib çıxardar. Dünəninə xor baxanın yaxşı sabahı olammaz. Xalq öz xalqılığını itirər, yer üzündən silinər. Bax, budur şairin demək istədikləri!» deməsi gənclərə ünvanlanan xitab kimi səslənir.

Yaranmış durumu nəzərə alan Vidadi Babanlının atası, övladını «kollektivləşmə»yə xidmət edən şair kimi görməkdən çəkindirmək istəyir. «Sən də onların bir tayı olmaq istəyirsənsə, buyur, get, ol! Ancaq onu

yaxşı bil ki, hörmətsizlik, urvatsızlıq qazanacaqsan. Daimi ehtiyac içində çabalayacaqsan. Yaxın qohum-əqrəbaların da səndən kənar gəzəcəklər. Əli Talib əmin, heç olmasa, yaxşı müəllimdi. Yüksək savadı, zəkası hesabına çulunu sudan bir təhər çıxardır. Sən nəyə güvənirsən? Şairlik öyrənib, nə bacaracaqsan?!» Əsərin gedişatında Vidadi Babanlı onun yaradıcılığına etiraz bildirən atasının peşiman olma məqamını incəliklə anlatmağa nail olmuşdur. Vidadi Babanlının ilk uğurlarına sevinən və peşimançılıq keçirən atanın sevincləri qəlbləri riqqətə gətirir: «Şerimin qəzetdə çıxmasından heç bir həftə keçməmiş təcili məktubunu aldım. Qəzeti rayonda oxuyub, sevincindən kövrəldiyini, şer çox xoşuna gəldiyini yazmışdı. Mənim ürəyimdəkiləri duya bilmədiyini, yanıldığını da böyük ürəkli ata səmimiyyətiylə etiraf etmişdi. Bu etiraf mənim üçün neçə-neçə tənqidçinin, məşhur ədəbiyyatşünasın tərifindən qat-qat əhəmiyyətli və təsirliydi». Bu epizod ilə Vidadi Babanlı əksəriyyətin seçdiyi yolla getməyəcəyi barədə qərarı hələ cavanlıqda qəbul etdiyini açıqlayır.

«Gizlinlər» romanında Vidadi Babanlı ədəbi prosesdə yazarların təkmilləşməyə səy göstərməsinin vacibliyini, həmçinin ədəbi prosesdə varislik problemini xüsusi vurğulayır. Müəllifin fikrincə, yazar hər an öz qələm gücünün təkmilləşməsinə can atmalıdır. Müəllifin ədəbiyyata gəlişi, bu yolda atdığı ilk addımların təsvir etməsində onun ilk yazdığı ədəbi nümunələrin daxili tənqidə davam gətirməməsinin əksi maraq kəsb edir: «...Bağlamamı qoltuğuma vurub dərnək məşğələsini tərk etdim. Yazılarıma daxili inamım yenə də sınmamışdı. Düşünürdüm ki, «pyeslərim», eləcə də o biri yazılarım heç də pis deyil. Dərnək üzvləri sadəcə olaraq paxıllanırlar, özləri iri həcmli əsərlər yaza bilmədiklərindən məni gözləri götürmür». Vidadi Babanlının sonradan bu fikirdə yanıldığını və ondan ibrət dərsi götürməsini əsərdə açıqlaması da maraq doğurur: «Pyeslərimin», mənzumələrimin zəifliyini, bədii yararsızlığını, acı da olsa, dərkə başlamışdım. İlk gənclik «külliyyatımı» bükүb çamadanımın dərin bir küncünə gömdüm. İrəli kurslarda, ədəbiyyatın incəliklərinə azçox bələd olanda isə götürüb peçə atdım, gözüm baxa-baxa yandırıb külə döndərdim».

Ədəbi prosesdə varislik probleminə toxunan Vidadi Babanlı yaradılan ədəbi numünələrin millətin tarixi, adət-ənənələri və yaratdığı mədəni dəyərlərlə ziddiyyət təşkil etməməsinin vacibliyinə toxunur. Bu amili Mikayıl Rəfilinin tutduğu iradlara Sabit Rəhmanın susmaması, ona real faktlara əsaslanaraq cavab verdiyini müşahidə edirik: «Hörmətli professor desin görək nə üçün öz gözündə tiri görmür, özgə gözündə tükü asanca seçir?... Məqalələrində bizə Füzulilərdən, Vaqiflərdən, Mirzə Fətəli Axundovlardan üz döndərməyi, yönümüzü qərbə tutmağı, Amerika şairləri Uitmendən, Verxarindən öyrənməyi tövsiyə edən Rəfili yaxşı olardı ki, özünün kobud səhvlərindən danışaydı. O dramaturgiyamızın banisi Mirzə Fətəlini məhdud, liberal, dayaz fikirli adlandırmaqla kifayətlənmir, bununla ürəyi soyumur, böyük bir ədəbi cərəyanın mübariz orqanı olan «Molla Nəsrəddin» jurnalına və bu jurnalın naşiri, həqiqi demokrat Cəlil Məmmədquluzadəyə, böyük satirikimiz Mirzə Ələkbər Sabirə ləkə yaxır, xalqın gözündən salmağa çalışır...» Müəllif gənc yazarların dahi gələm ustadlarının yollarının davam etdirməsinə çağırır. Bu baxımdan, Vidadi Babanlının özünü Səməd Vurğunun davamçılarından biri kimi qiymətləndirməsi diqqəti cəlb edir. Vidadi Babanlıya ünvanlanmış Səməd Vurğunun dedikləri maraq kəsb edir:

«Unutma ki, sənə şairlik xeyir-duasını mən vermişəm. Gərək bədii yaradıcılıq sahəsində də geriləməyəsən. Elmlə sənət qoşa qanaddır. Qoşa qanadla pərvazlananlar daha ucalara uçurlar».

«Gizlinlər» romanının özəl cəhətlərindən biri ədəbi mühitdə baş verən hadisələrə qiymətin görkəmli yazarların özləri tərəfindən verilməsidir. Belə ki, ədəbi nümunələrin məzmununun dəyərini müəyyənləşdirmək üçün onların milli dəyərlərə və adət-ənənələrə uyğun olmasının bir meyar kimi vacibliyinin qəbul edilməsi Süleyman Rəhimovun dili ilə səsləndirilmişdir. Bu baxımdan Süleyman Rəhimovun Məmməd Rahimə verdiyi cavabı maraq kəsb edir: «Sənin kimilərin əksinə olaraq, dünən dediklərimin arxasından bu gün qaçmıram. Bakı küləyi təkin saatda bir neçə səmtə əsmirəm, cilddən-cildə girmirəm». Əsərin digər bir yerində Süleyman Rəhimovun Rəsul Rzanın «...ənənəyə hədsiz aludəçilik, ona kor-koranə bağlılıq qatı mühafizəkarlıqdı! Mühafizəkarlıq isə inkişafa, irəliləyişə düşməndi. Zamanla həmahəng addımlamağa maneədi!» fikrinə verdiyi cavab da özünə diqqəti cəlb edir: «Ənənəni sən Rəsul Rza yaratmayıbsan ki, ona sən də qadağa qoyasan. Hər bir adətin, ənənənin kökü uzun əsrlərə, minilliklərə gedib çıxır. Milli adət-ənənəsi olmayan xalq ölümə məhkumdur. Qoca tarix bunu çoxdan sübuta yetirib. Köksüz, rişəsiz xalqın özü yox, salnamələrdə yalnız adı qalıb». Mir Cəlalın yazıçı Əbülhəsənə etirazında milli adət-ənənələrin qorunması millətimizin yaşadılması ilə əlaqələndirir: «Sən çoxdanın nihilistisən. Adət-ənənənin ən yaxşısı, gərəklisi də sənin üçün köhnəlikdən başqa bir şey deyil. Yadımdadı, «proletkultçuluğ»un qızğın zamanlarında sən bizim qədim, milli çalğı alətlərimizin də əleyhinə gedirdin. Tarın, kamançanın, zurna-balabanın qəbrini qazırdın. Onları musiqimizdən silmək, toy və şənliklərimizdə istifadə etməmək təklifi verirdin, «daloy deyirdin». Axırı nə oldu? O tar-kaman da yaşayır, zurna-balaban da. Və neçə ki, bu xalq yaşayır, o çalğı alətləri daima yaşayacaq. Bizim bütün milli adət-ənənələrimiz də həmçinin».

Yazarların totalitar sistemə və ideologiyaya xidmət etməsi əvəzinə öz daxili hiss və fikirlərinin ədəbi nümunələrdə əks etdirilməsi çağırışı Mehdi Hüseynin dili ilə əsərdə açıqlanır. Əsərdə Mehdi Hüseynin şer yazmaq haqqında dedikləri ibrətli sözlər yaddaşlara həkk olunur: «Həqiqi şer nə zaman yaranır? O zaman ki, şair onu coşduran, qəlbini riqqətə gətirən, son dərəcə sevindirən, yaxud qəzəbləndirən hadisələri qələmə alır. Yazmamağı bacarmadığı anlarda yazır. Həmin o anlarda şairin könlündə doğan hisslər nə qədər zəngin olursa, beynini, zehnini məşğul edən duyğular, düşüncələr nə qədər yeni və bakirədirsə, şer də o qədər gözəl hasilə gəlir; sənət incisinə çevrilir».

«Cizlinlər» romanında Vidadi Babanlının sovet repressiv aparatının törətdikləri ilə razılaşmaması əsərin daxili mahiyyətini açıqlayan vacib amillərdəndir. Vidadi Babanlının, Cəlal Məmmədovun və Mirzə İbrahimovun köməkliyi ilə ədalətsiz şəkildə iclasa qoyulması əsərdə ürəkağrıdıcı şəkildə təsviri ilə diqqətdən yayınmır. Özünə qarşı olan ədalətsizliyə etirazını Kommunist Partiyası sıralarından çıxmaqla bildirən Vidadi Babanlının fikirləri əsərdə yaddaşlara həkk olunur. «Kommunist Partiyası sıralarından çıxarılmaq o deməkdi ki, sənin həyat kitabın bağlanır. Hər şeydən məhrum edilirsən. Nə çap olunacaqsan, nə də bir yazıçı kimi sayılacaqsan. Ölüncə küncdə-bucaqda külllənəcəksən...» qorxusunu gözünün altına alan Vidadi Babanlının atdığı hərəkət diqqətdən

yayınmır. Yazıçının Mirzə İbrahimova dediкləri sözlər ictimai-siyasi mühitin mənzərəsini gözlərimizdə canlandırmışdır: «Mən özüm кönüllü çıxıram partiyadan. Bir partiya кi, öz üzvünün qanuni hüququnu qorumur, haqqı nahaqq ayağına verir, ədaləti tapdaladır, onun üzvü olmaq istəmirəm» dediкləri Şura haкimiyyətinə verilən qiymətdir.

Vidadi Babanlının qələmə aldığı «Gizlinlər» romanı memuar Janrında qələmə alınmış bədii əsər кimi dəyərlidir. Yazıçının ömür yolunun bir hissəsinin əкsini tapması ilə maraq кəsb edir. Gələcəк nəsillərə yazıçının həyatından bəhs edən sovet dövrü ədəbi mühit barədə tarixi material кimi xüsusi dəyərə maliкdir.

## РАЗМЫШЛЕНИЯ О СОВЕТСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЕ В РОМАНЕ «ТАЙНЫЕ»

**С.Ш.ШАРИФОВА**

**РЕЗЮМЕ**

Роман Видади Бабанлы «Тайные» создан в жанре мемуара и дает историческую оценку процессам, имевшим место в литературной среде социалистического периода. Сам автор, называя свое произведение «достоверным романом», отмечает историческую правдивость отображенных событий. Литературная и историческая значимость романа возрастает в результате того, что в нем использованы воспоминания выдающихся азербайджанских и русских деятелей культуры той эпохи. При этом эти лица являются героями произведения. Вместе с тем, основные события в произведении разворачиваются между двумя лицами – самого автора и Самеда Вургуна. Роман представляет как историческую ценность, так и ценность с точки зрения развития в отечественной литературе жанра романа-мемуара.

## REFLECTIONS SOVIET LITERARY ENVIRONMENT IN THE NOVEL "SECRET"

**S.SHARIFOVA**

**SUMMARY**

The novel Vidadih Babanlih "Secret" is created in a genre memoirs and gives a historical estimation to processes having a place in literary environment of the socialist period. The author, naming the product " of the authentic novels ", marks historical truthfulness of the displayed events. The literary and historical importance of the novel grows in the end because the memoirs of the distinguished Azerbaijan and Russian figures of culture of that epoch are used. Thus these persons are the heroes of a product . At the same time, the basic events in a product are advanced between two authors and Samad Vurgun. The novel represents, both historical meaning, and meaning from the point of view of development in the internal literature of a genre of the novel - the memoirs.